# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STATİSTİKA KOMİTƏSİ

**Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsi**

# SIĞORTAÇILARIN (TƏKRARSIĞORTAÇILARIN) VƏ HÜQUQİ ŞƏXS SIĞORTA BROKERLƏRİNİN FƏALİYYƏTİNİN STATİSTİK MÜŞAHİDƏSİNƏ DAİR KEYFİYYƏT MƏRUZƏSİ

**22.04.2013**

Azərbaycan Respublikası, Bakı şəhəri, İnşaatçılar prospekti 136
əlaqə: nuru@azstat.org, + 994 12 538 74 50

# Mündəricat

1. Statistik prosesə və məhsullara giriş........................................................ 3

2. Aktuallıq.................................................................................................. 4

3. Dəqiqlik....................................................................................................4

4. Vaxtlı-vaxtında olma və tam vaxtında yerinə yetirmə..............................5

5. Bərabər giriş və aydınlıq............................................................................6

6. Uyğunluq (əlaqələndirmə) və müqayisəlilik..............................................7

7. Çıxış keyfiyyət komponentləri arasında seçim..........................................7

8. İstifadəçi tələbatlarının və qavramalarının qiymətləndirilməsi.................8

9. İqtisadi səmərəlilik və respondentlərə düşən yük......................................8

10. Məxfilik, şəffaflıq və təhlükəsizlik...........................................................8

11. Yekun........................................................................................................9

## 1. Statistik prosesə və məhsullara giriş

***Müşahidənin qısa təsviri***

Milli hesablar statistikası və makroiqtisadi göstəricilər statistikası şöbəsinin Dövlət maliyyəsi və bank statistikası sektoru ölkə ərazisində fəaliyyət göstərən sığortaçıların və sığorta brokerlərinin fəaliyyəti haqqında hesabat aparır.

Bu hesabat sığortaçının əmlakı, kapitalı və onların mənbələri, sığorta brokerlərinin maliyyə nəticələri, sığortaçının bütün sığorta sinifləri üzrə müqavilələri və daxilolmaları, hesablanmış sığorta haqları, sığorta hadisələri ilə əlaqədar hesablanmış sığorta ödənişləri və sığortaçının xərcləri barədə məlumatlar əldə edilir.

Bu məlumatlar əsasında sığortaçıların və sığorta brokerlərinin fəaliyyəti barədə daha ətraflı məlumatlar əldə edib cədvəllər hazırlanılır.

***Müşahidə vahidləri***

Sığorta fəaliyyəti üzrə göstəricilərin əldə edilməsi məqsədi ilə fəaliyyət göstərən 35 sığortaçılardan (təkrarsığortaçılardan) və hüquqi şəxs sığorta brokerlərindən rəsmi statistik hesabat yığılır.

Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsi istehsal, gəlirlərin ilkin bölgüsü və gəlirlərin təkrar bölgüsü hesablarının qurulmasında sığorta göstəricilərindən geniş istifadə edir.

***Əhatə***

Sığortaçıların və sığorta brokerlərinin məlumatları təşkilatı-hüquqi formasından və mülkiyyətindən asılı olmayaraq ölkədə fəaliyyət göstərən bütün sığortaçılar (təkrarsığortaçılar) və hüquqi şəxs sığorta brokerləri tərəfindən Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin veb səhifəsində onlayn rejimində təqdim olunur.

***Əsas göstəricilər:***

- Aktivlər;
- Kapital və öhdəliklər ;
- Gəlirlər;
- Xərclər;
- Maliyyə mənfəəti;
- Könüllü sığorta.

- İcbari sığorta;

***Sorgu vərəqəsi:***

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 18 mart 2013-cü il tarixli, 15/08 saylı Qərarı ilə "Sığortaçıların (təkrarsığortaçıların) və hüquqi şəxs sığorta brokerlərinin fəaliyyəti haqqında" 1-sığorta nömrəli rəsmi statistika hesabatı təsdiq edilmiş və hesabatın doldurulmasına dair metodoloji izahat hazırlanmışdır. Sığortaçılar və sığorta brokerləri hesabatı rüblük dövr üzrə hesabat dövründən 25 gün sonra və il başa çatdıqdan sonra mart ayının 31-dək yerləşdiyi rayonun (şəhərin) statistika orqanına təqdim etməlidirlər.

## 2.Aktuallıq

Ölkədə sığorta fəaliyyətini Azərbaycan Respublikasının "Sığorta fəaliyyəti haqqında" qanunu tənzimləyir.

Bu Qanun Azərbaycan Respublikasında sığorta sisteminin inkişafının, sığorta bazarının peşəkar iştirakçılarının, o cümlədən sığortaçıların, təkrarsığortaçıların, sığorta vasitəçilərinin fəaliyyətinin əsas istiqamətlərini və prinsiplərini, habelə sığorta sahəsində dövlət tənzimlənməsinin və nəzarətinin hüquqi və iqtisadi əsaslarını müəyyən edir.

Hal-hazırda qtisadi statistikada beynəlxalq standartlar sürətlə inkişaf etdiyindən dünyanın əksər ölkələrində olduğu kimi Azərbaycanda da əsasən Milli hesablar sisteminin 1993 və MHS-2008-in tələblərinə müvafiq olaraq təkmilləşdirilir. Sığorta fəaliyyətinin göstəriciləri Milli hesablar statistikasında müəyyən hesabların tərtibi üçün geniş istifadə olunur.

## 3. Dəqiqlik

Sığortaçıların (təkrarsığortaçıların) və hüquqi şəxs sığorta brokerlərinin fəaliyyətinin nəticələrinin hesablanması və qarşıya qoyulan vəzifələrin keyfiyyətli həlli üçün, Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsi ilk növbədə Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin veb səhifəsində onlayn rejimində sığortaçı tərəfindən yerləşdirilmiş statistik hesabat forması Baş Hesablama Mərkəzinin əməkdaşları tərəfindən yoxlanılır. Qəbul edilən məlumatların

keyfiyyətinin yaxşılaşdırılması istiqamətində mütəmadi olaraq metodoloji işlər davam etdirilir. Hər hansı metodoloji yeniliklər baş verərsə operativ olaraq BHM-nin əməkdaşları məlumatlandırılırlar.

***D4. Sorğuya cavab vermiş vahidlərin xüsusi çəkisi (hesabat intizamı)***

***Cədvəl № 1***

| | 2010 | 2011 | 2012 |
|---|---|---|---|
| Məlumatların toplanması üçün fəaliyyətdə olan sığortaçıların sayı | 35 | 35 | 35 |
| Hesabat təqdim etmiş sığortaçıların sayı | 35 | 35 | 35 |
| Hesabat təqdim etmiş sığortaçıların xüsusi çəkisi (%) | 100% | 100% | 100% |

## 4.Vaxtlı-vaxtında olma və tam vaxtında yerinə yetirmə

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin "Statistik işlər proqramı"na əsasən rüblük məlumatlar hesabat dövründən sonra 50-ci gün illik isə aprel ayının 22-dək hazırlanılır. Əldə olunan məlumatlar Baş Hesablama Mərkəzi, Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsi tərəfindən təhlil olunur.

*2012-ci ilin bir neçə ayı üzrə* ***V2 (hesabat dövrünün sonuncu günündən son nəticələrin nəşr gününə qədər günlərin sayı)*** *göstəricisi (son nəticələrin vaxtlı-vaxtında olması)*

***Cədvəl № 2***

| Hesabat dövrü | 30.03.2012 | 30.06.2012 | 30.09.2012 |
|---|---|---|---|
| Nəşr tarixi | 25.05.2012 | 25.08.2012 | 25.11.2012 |
| Aralıq vaxt (laq), təqvim günü | 56 gün | 56 gün | 56 gün |
| Aralıq vaxt (laq), iş günü | 39 gün | 40 gün | 40 gün |

*2012-ci ilin bir neçə ayı üzrə **V3** göstəricisi (nəşrin tam vaxtında yerinə yetirilməsi)*

***Cədvəl № 3***

| Hesabat dövrü | 30.03.2012 | 30.06.2012 | 30.09.2012 |
|---|---|---|---|
| Elan edilmiş nəşr tarixi | 25.05.2012 | 25.08.2012 | 25.11.2012 |
| Faktiki nəşr tarixi | 24.05.2012 | 25.08.2012 | 24.11.2012 |
| Aralıq vaxt (laq) | -1 | 0 | -1 |

## 5. Bərabər giriş və aydınlıq

Sığortaçıların (təkrarsığortaçıların) və hüquqi şəxs sığorta brokerlərinin fəaliyyəti üzrə yekun məlumatlar hazırlandıqdan sonra istifadəçilərin tələbatlarının ödənilməsi məqsədi ilə bir neçə yayım vasitəsindən istifadə olunur. Belə ki, yekun məlumatların hesablanması prosesi yekunlaşdıqdan sonra rüblük və illik məlumatlar hazırlanmış cədvəllərdə, illik məlumatlar isə əks olunmuş statistik məcmuələrdə dərc olunur. İllik məlumatlar Komitənin veb-səhifəsindəki statistik məlumat bazası bölməsində də yerləşdirilir: http//base.azstat.gov.az:8080/MetaData/

Bundan əlavə göstəricilər və hesabat formalarına dair metaməlumatlar, həmçinin digər metodoloji izahlar da mövcuddur: http://www.stat.gov.az/menu/7/.

***Nəticələrin yayımlanması üçün istifadə olunan vasitələr***

| Sıra №-si | Vasitə | Əldə edilmə yeri |
|---|---|---|
| 1 | Dövlət Statistika Komitəsinin veb-saytı | www.stat.gov.az |
| 2 | Ekspress məlumatlar, press-relizlər | - |
| 3 | Nəşr olunan statistik məcmuələr | - |
| 4 | Məlumat bazası | http://www.azstat.org/MESearch/search?departament=10&lang=az |
| 5 | Dövlət statistika orqanlarına göndərilən sorğulara cavablar | - |
| 6 | “Azərbaycan rəqəmlərdə” | - |
| 7 | “Azərbaycanın statistik göstəriciləri” | http://www.stat.gov.az/menu/6/statistical_yearbooks/ |
| 8 | “Azərbaycan faktlarla” | - |

***BA1. Kağız məruzələr üçün abunələrin və sifarişlərin sayı***

Sığortaçıların və hüquqi şəxs sığorta brokerlərinin fəaliyyəti haqqında məlumatlar kağız formasında Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsi tərəfindən hazırlanan "Sığortaçıların (təkrarsığortaçıların) və hüquqi şəxs sığorta brokerlərinin fəaliyyəti haqqında" adlı rüblük və illik bülleten vasitəsilə təqdim olunur. Bülleten ümumi olaraq 30 nüsxə çap olunur ki, onlardan:

-20 nüsxəsi müxtəlif nazirliklərə və digər dövlət orqanlarına, həmçinin yerli və xarici təşkilatlara;

-2 nüsxə şöbənin işçilərinə;

-3 nüsxə Dövlət Statistika Komitəsində digər şöbələrə paylanılır;

-5 nüsxə Baş hesablaşma mərkəzinin Milli hesablar statistikası məlumatlarının işlənməsi şöbəsinin işçilərinə.

***BA2. Onlayn məlumat bazasına girişlərin sayı***

http://www.stat.gov.az/link_click_counter/-də milli hesablar sistemi statistikası məhsulundan istifadəçilərin istifadə %-ləri daimi əks etdirilir.

## 6. Uyğunluq (əlaqələndirmə) və müqayisəlilik

***Məlumatların uyğunlaşdırılması və düzəlişlər.***

Sığortaçıların (təkrarsığortaçıların) və hüquqi şəxs sığorta brokerlərinin fəaliyyəti haqqında hesabat formasının hazırlanmasında Azərbaycan Respublikasının 27 dekabr 2007-ci il tarixli 519-IIIQ №-li Sığorta fəaliyyəti haqqında qanuna və eyni zamanda MHS-1993 və MHS-2008-ə keçid tələblərinə müvafiq olaraq beynəlxalq standartlara uyğunlaşdırmaq nəzərdə tutulur.

## 7. Çıxış keyfiyyət komponentləri arasında seçim

Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsi hesabat göstəricilərinin hazırlanmasında bütün keyfiyyət aspektlərinin ayrı-ayrılıqda yaxşılaşdırılması üçün mümkün imkanlardan istifadə edir və bu sahədə müsbət nəticələrin alınması istiqamətində işlərini davam etdirir. Belə ki, aktuallıq aspekti üzrə məlumatların yığımı, emalı və yayılması zamanı operativlik hər zaman gözlənilir. Dəqiqlik aspekti üzrə məlumatların toplanmasına daim nəzarət edilir və mütəmadi olaraq məlumatların

dürüstlüyü yoxlanılır. Vaxtlı-vaxtında olma aspekti üzrə hər il göstəricilərin yayımlanması barədə bülleten hazırlanır.

## 8. İstifadəçi tələbatlarının və qavramalarının qiymətləndirilməsi

İlkin məlumatlar elektron formada toplandıqdan sonra araşdırılır və yoxlanılır, daha sonra istifadəçilərə çatdırılır. Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsi tərəfindən istifadəçilərlə mütəmadi olaraq görüşlər keçirilir. Bu görüşlərdə istifadəçilərin tələbatlarının ödənilməsi məqsədi ilə onlar tərəfindən verilən təkliflər mümkün qədər nəzərə alınır və tələbatın ödənilməsi istiqamətində şöbə öz işini qurur.

## 9. İqtisadi səmərəlilik və respondentlərə düşən yük

Rəsmi statistikanın keyfiyyətliliyini və ictimaiyyətin statistikaya inamını təmin etmək üçün bu sahədə proqramların həyata keçirilməsi üzrə işlərin təşkili və aparılması statistika məlumatlarının düzgünlük, obyektivlik, müasir şəraitə uyğunluq, məxfilik və şəffaflıq prinsipinə əsaslanır.

1997-ci ildə tərtib olunmuş hesabat formasına dair məlumatlar müəssisə və təşkilatlardan kağiz formasında əldə edilirdi. Bu da müəyyən gecikmələrə, əməkdaşlara düşən yükün artmasına səbəb olurdu.

Lakin 2011-ci ildən etibarən informasiya texnologiyalarının imkanlarından geniş istifadə olunmağa başlanmışdır. Belə ki, hesabat formalarının yığılması ilə bağlı sığortaçılarla aparılan bütün yazışmalar elektron poçt vasitəsilə aparılmışdır. Hesabat formasının doldurulmasına dair göstərişlər Dövlət Statistika Komitəsinin veb-saytında Milli hesablar və makroiqtisadi göstəricilər statistikası söbəsinə aid olan bölmədə yerləşdirilmişdir.

Hesabat formaları müşahidə vahidləri tərəfindən onlayn rejimində qəbul edilir. Bu da müşahidə vahidlərinin və şöbənin əməkdaşlarının vaxtına qənaət etməyə, həm də vaxtında və keyfiyyətli məlumatlar əldə etməyə imkan vermişdir.

## 10. Məxfilik, şəffaflıq və təhlükəsizlik

Rəsmi statistika haqqında Azərbaycan Respublikasının Qanununun VI fəslinin 16-cı maddəsinə əsasən statistikanın aparılması üçün yığılan, işlənən və məlumatlar bazasına daxil edilən, birbaşa və ya dolayı yolla statistik vahidlərin tanınmasına və beləliklə də, ilkin məlumatların əldə edilməsinə imkan verən hüquqi və fiziki şəxslərin ilkin statistik məlumatları konfidensial sayılır və statistik sirdir.

İlkin məlumatlar onlayn rejimində fərdi kompüterlər vasitəsilə əldə edilidiyi üçün təhlükəsizliyi təmin etmək məqsədilə yalnız Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsinin ilkin məlumatlara baxmaq (düzəliş etmək üçün icazə yoxdur) imkanı vardır. Bu baxımdan da şöbə ilkin məlumatların məxfiliyinin qorunmasını daim izləyir və bu sahədə lazımi tədbirlər görür.

## 11. Yekun

Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsi sığorta fəaliyyətinin əsas göstəriciləri üzrə keyfiyyətin yüksəldilməsi istiqamətində işlərin davam etdirilməsini məqsədəuyğun hesab edir.

Azərbaycan Respublikası, Bakı şəhəri, İnşaatçılar prospekti 136
əlaqə: nuru@azstat.org, + 994 12 538 74 50